**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№ 241/5** **11 aprel 2013-cü il**

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Şəki regional Ədliyyə şöbəsi tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatasına ünvanlanmış 13.02.2013-cü il tarixli 1/48 saylı məktubda göstərilən sərbəst auditor Nuriyev Alqış Tərlan oğlu və Gəncə şəhər auditor təşkilatı (direktor Məmmədov Natiq Həmid oğlu) tərəfindən Qəbələ rayon Həmzəli bələdiyyəsinin 2010, 2011 və 2012-ci illər üzrə aparılmış auditor yoxlamaları zamanı yol verilmiş nöqsanlar üzrə müzakirənin nəticələri haqqında**

Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Şəki regional Ədliyyə şöbəsi tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatasına ünvanlanmış 13.02.2013-cü il tarixli 1/48 saylı məktubda göstərilən Sərbəst auditor Nuriyev Alqış Tərlan oğlu və Gəncə şəhər auditor təşkilatı (direktor Məmmədov Natiq Həmid oğlu) tərəfindən Qəbələ rayon Həmzəli bələdiyyəsinin 2010, 2011 və 2012-ci illər üzrə aparılmış auditor yoxlamaları zamanı yol verilmiş nöqsanlar üzrə Azərbaycan Respulikası Auditorlar Palatasının Auditorların Peşə Etikası Komitəsinin sədri A.Musayevin məruzəsini dinləyərək və həmin Komitənin 2013-cü il 01 aprel tarixli iclas protokolunu nəzərə alaraq, Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyi Şəki regional Ədliyyə şöbəsi tərəfindən Azərbaycan Respublikası Auditorlar Palatasına ünvanlanmış 13.02.2013-cü il tarixli 1/48 saylı məktubda göstərilən Sərbəst auditor Nuriyev Alqış Tərlan oğlu və Gəncə şəhər auditor təşkilatı (direktor-auditor Məmmədov Natiq Həmid oğlu) tərəfindən Qəbələ rayon Həmzəli bələdiyyəsinin 2010, 2011 və 2012-ci illər üzrə aparılmış auditor yoxlamaları zamanı yol verilmiş nöqsanlar üzrə Azərbaycan Respulikası Auditorlar Palatasının Auditorların Peşə Etikası Komitəsinin sədri Adığözəl Musayevin məruzəsi və həmin Komitənin 2013-cü il 01 aprel tarixli iclas protokolu nəzərə alınsın (əlavə olunur).
2. Sərbəst auditor Nuriyev Alqış Tərlan oğlu və Gəncə şəhər auditor təşkilatı (direktor-auditor Məmmədov Natiq Həmid oğlu) tərəfindən Qəbələ rayon Həmzəli bələdiyyəsinin 2010, 2011 və 2012-ci illər üzrə aparılmış auditlər keyfiyyətsiz hesab edilsin.
3. Qəbələ rayon Həmzəli bələdiyyəsinin 2010, 2011 və 2012-ci illər üzrə auditini keyfiyyətsiz apardıqlarına görə Sərbəst auditor Nuriyev Alqış Tərlan oğluna və Gəncə şəhər auditor təşkilatının direktor-auditoru Məmmədov Natiq Həmid oğluna xəbərdarlıq edilsin və onlardan gələcək fəaliyyətlərində bu cür nöqsanlara yol verməmələri tələb olunsun.
4. Bu qərar Palatanın saytında yerləşdirilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**